*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 167-173*
https://doi.org/10.62837/2024.4.167

**AYTƏN HÜSEYNOVA**
**AMEA Nəsimi adına Dilçilik İnstitutu**
**aytenhuseynova04@gmail.com**

# F. de SÖSSÜRÜN DİLÇİLİK KONSEPSİYASI

**Xülasə**

Məqalədə F.de Sössürün dilçilik konsepsiyası onun "Ümumi dilçilik kursu" əsərinin üzərində təhlillər aparılmaqla araşdırılmışdır. Əsas məqsəd F.de Sössürün XX əsr dünya dilçiliyində etdiyi yenilikləri ortaya çıxarmadır. Tədqiqatın sonunda bu qənaətə gəlinmişdir ki, dilçilik elmindəki bir çox ziddiyyətli məqamlara, dolaşıq məsələlərə cəmi iki-üç il ərzində oxuduğu mühazirələr əsasında qələmə alınmış "Ümumi dilçilik kursu" əsərində aydınlıq gətirmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, o, dilçilik elminin həm obyekt və predmetini ilk dəfə olaraq düzgün müəyyənləşdirmiş, dilin işarələr sistemindən ibarət olduğunu qeyd etməklə həm də semiotika elminin əsasını qoymuşdur. İlk dəfə onun yaradıcılığında dil və nitqin oxşar və fərqli xüsusiyyətləri, dilin sinxron və diaxron öyrənilməsi, dil vahidləri arasında sintaqmatik və assosiativ (praqmatik) münasibətlər, xarici və daxili dilçilik, dil işarələrinin dəyərliliyi və ixtiyariliyi, dilin sistem xarakteri, dilin və xalqın tarixi və s. kimi dolaşıq məsələlərə aydınlıq gətirmişdir.

**Açar sözlər:** F. de Sössür, dilçilik konsepsiyası, dil və nitqin fərqi, dilin işarəvi təbiəti, dilin və xalqın tarixi

Dilçilik elmi müasir səviyyədə inkişafına görə, sözsüz ki, böyük isveçrə dilçisi F.de Sössürə minnətdar olmalıdır. Çünki Sössürə qədərki dilçilər bu elmin obyekt və predmetini hələ doğru müəyyənləşdirə bilməmiş, ona məntiqi, psixoloji, fizioloji və başqa elm sahələrinin baxış bucağından yanaşmışlar. İlk dəfə olaraq o, dilçiliyi ictimai hadisə kimi dəyərləndirərək onun obyektinin dil olduğunu göstərmişdir: "Dilçiliyin əsl və yeganə obyekti dildir" söyləmişdir. Akademik N.Cəfərovun təbirincə desək: *"F. de Sössür bu fikirdə idi ki, XIX əsrin əvvəllərində müqayisəli-tarixi dilçiliyi yaradanlar yeni metoda həddindən artıq aludə olduqlarından elə bir eyforiyaya qapılmışdılar ki, məşğul olduqları hadisənin (dilin!) mahiyyəti (və nəticə etibarilə, dil haqqındakı elmin predmeti!) tədqiqatdan kənarda qalmışdı"* (21).

**Dil işarələrinin təbiəti və başlıca xüsusiyyətləri.** Dilçilik elmində dilin işarəvi təbiətə malik olması və dil işarələrinin təbiəti, onların başlıca xüsusiyyətləri haqqında elmi izaha da ilk dəfə olaraq F.de Sössürün yaradıcılığında rast gəlmək olar. Doğrudur, ondan əvvəlki qrammatiklər də dil məsələlərinə dair bir sıra əsərlər yazmışlar. Lakin dilin işarələr sistemi olduğunu və dilçiliyi semiologiyanın tərkib hissəsi kimi götürməyi ilk dəfə bu dahi dilçi təklif etmişdir. O, fikirlərini belə ümumiləşdirmişdir: *"Dil ideyalar ifadə edən işarələr sistemidir; onu yazı, lal-karların əlifbası, simvolik adətlər, hərbi siqnallar, ədəb-ərkan formaları və s. və i. ilə müqayisə etmək olar. Beləliklə, cəmiyyət daxilində işarələrin həyatını araşdıran bir*

*elmi təsəvvür yaratmaq mümkündür; belə bir elm sosial psixologiyanın bir hissəsi ola bilər; biz onu semitologiya (yunanca "işarə") adlandıracağıq. Bu elm bizə aydınlaşdırmalıdır ki, işarə nə olan şeydir və hansı qaydalarla idarə olunur. Bir halda ki, bu elm hələki mövcud deyil, onun necə olacağı barədə fikir söyləmək olmaz; lakin onun yeri əvvəlcədən müəyyənləşdirilib və bu elm mövcud olma hüququna malikdir. Dilçilik bu ümumi elmin yalnız bir hissəsidir"* (3, s. 21). Dahi dilçi irəli sürdüyü bu ideyası ilə dil anlayışı haqqında mövcud təsəvvürləri kökündən dəyişməyə nail oldu. Belə ki, o, dilçilik elminin həm obyektini, həm də dil işarələrinin bir çox özəlliklərini müəyyənləşdirdi.

Sössürün dilə münasibəti, onun daxili mahiyyətinin açılması yönündəki çalışmalarında dilçiliyin aşağıdakı problemlərinə də toxunulmuşdür:

1. Dilçiliyin ümumi elmlərə münasibəti, həmçinin onun obyekti, tərifi;
2. Dilin işarələr sistemində yeri;
3. Dildə işarə, məna, dəyər anlayışları;
4. Dildə forma və məzmun planı;
5. Milli dillərin yaranması;
6. Nitq mədəniyyəti məsələləri.

Dil və dilçilik haqqında Sössürün görüşləri dərin və geniş tədqiqat tələb edir. Sadalanan problemlərin lazımi səviyyədə öyrənilməsi müasir dünya dilçiliyinin qarşısında çox mühüm məsələ kimi durur.

F.de Sössürə qədər dilə idealist cəhətdən yanaşılmış, onu ilahiyyətlə bağlı izah etməyə çalışmışlar. Buna görə də insanların həyatı üçün çox zəruri olan dilə adi əsaslı və elmi tərif müəyyənləşdirilməmişdir. Dil nədir? sualına əsaslı və doğru cavab ilk dəfə onun tərəfindən verilmişdir: *"Dil sistemdir və yalnız özünün məxsusi qaydalarına tabedir", "Dil – sərbəst işarələr sistemidir"; "Dil elə bir sistemdir ki, onun bütün hissələrinə sinxron vəhdət kimi baxılır və baxılmalıdır"* (3, s.25). Maraqlıdır ki, öz dövründə aparıcı mövqeyi ilə seçilən bir çox dilçilik cərəyanları (Gənc qrammatiklər də daxil olmaqla) dili parçalanmış və ayrı-ayrı elementlərin toplusu kimi izah etməyə çalışırdılar. O dövr üçün Sössürün dilə belə bir tərif verməsi böyük cəsarət tələb edirdi.

**Dil və nitqin fərqlilikləri.** Dil və nitqin fərqləndirilməsi və bu fərqliliklərin davamı olaraq dilin sistem xarakterinin açılması məsələsi də Sössürün dilçilik konsepsiyasının ayrılmaz hissəsi olmuşdur. Dil və nitqin üzvi sürətdə bir-biri ilə bağlı olduğunu, bunların birinin digəri üçün zəruri olması və biri olmasa digərini də təsəvvür etməyin çətinliyini qeyd edən Sössürün şərhi bu gün də öz aktuallığını qoruyub saxlayır: *"Dilin təkamülü məhz nitq hadisələri ilə şərtlənir: bizim dil vərdişlərimiz başqalarını dinləyərkən aldığımız təəssüratla dəyişir. Beləliklə, dillə nitq arasındakı qarşılıqlı asılılıq müəyyən edilir: dil, eyni zamanda, nitqin həm aləti (vasitəsi), həm də məhsuludur. Lakin bütün bunlar dillə nitqin tamamilə iki müxtəlif şey olmasına maneçilik eləmir"* (3, s.79). Bu mövzunun daha da dərin qatlarına nüfuz edən dilçi dillə nitqin fərqli xüsusiyyətlərini də aydın bir şəkildə izah edir: *"Dil, hamının malik olduğu, eyni zamanda hamı üçün ümumi olan, kimlərə mənsubdursa onların iradəsindən kənar bir şeydir... Nitq – insanlar nə danışırsa,*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 4, 2024*
*Səh. 167-173*
*onun hamısının məcmusudur; ona a) danışanların iradəsindən asılı olan fərdi kombinasiyalar, b) eyni dərəcədə həm danışanların iradəsindən asılı olan, həm də həmin kombinasiyaların reallaşması üçün lazım gələn fonasiya aktları daxildir. Nəticə etibarilə, nitqdə kollektiv olan heç nə yoxdur; onun təzahürü fərdi və anidir... Bütün bu mülahizələrə əsaslanaraq, dillə nitqi eyni bir baxış bucağı altında birləşdirmək mənasız olmazdı"* (3, s.80).

İnsanlar arasında başlıca ünsiyyət vasitəsi olan dil cəmiyyətin tələbi əsasında təşəkkül tapmış və inkişaf etmişdir. Sössürün fikrincə, dil anlaşma və ünsiyyət vasitəsidir və bu mənada xalqın malıdır. Bu səbəbdən hər hansı bir fərd özbaşına dili yarada və dəyişə bilməz. Ona görə ki, bu hadisə fərdin iradəsini aşan bir quruluşa malikdir. Söz isə fərddə meydana çıxır, fərdin iradəsinin məhsuludur. O, fərdin ixtiyarındadır. Deməli, nitq dildən daha öncə yaransa da, dilin varlığı üçün vacib amildir.

Dilin və xalqın tarixi də bir-biri ilə vəhdət təşkil edir. Elə buna görədir ki, xalqın tarixində baş verən hadisələr dildə öz əksini tapır. Dil insanın dünyadakı yerini və mövqeyini müəyyən edən, insanı insan edən keyfiyyətlərin başında gəlir. Onun duyğularını, düşüncələrini, istəklərini bütün incəliklərinə qədər ifadə edə bilməsinə, toplum içində yaşamını davam etdirməsinə vəsilə olan bilən bir hadisədir. Bir anlıq düşünsək ki, dil olmadan hər hansı bir informasiyanı, hadisəni, bizim üçün çox dəyərli olan xatirələrimizi başqalarna necə başa sala bilərik, yaxud necə yazıya ala bilərik? Tarixi hadisə olan dil olmadan yüzillərdən bəri elmdə, texnikada, iqtisadiyyatda, sosial və mədəni sahələrdə əldə edilmiş uğurları günümüzdə başqalarına, gələcəkdə də bizdən sonrakı nəsillərə necə ötürə bilərik? Bütün bunlar və daha bir çox sualların cavabı dilin sayəsində mümkündür. Dil insanın mövcudluğunun əsas şərtidir və insanla heyvan arasındakı fərqi göstərən ən mühüm ayırdedicidir. Dil həm də mədəniyyətin formalaşma mənbəyidir, onu nəsildən-nəsilə ötürən, fərdin ictimailəşməsinə xidmət edən mühüm vasitədir. Sössür belə bir eksperiment aparmaqla da dilin önəmini göz önündə canlandırır: *"Dili zamanla birlikdə götürüb danışan kollektivdən uzaqlaşsaq (uzun əsrlər ərsində təcrid olunmuş şəkildə yaşayan bir insan təsəvvür edək), görünür, biz onda dildə heç bir dəyişiklik tapmayacağıq. Çünki zaman ona hökm edə bilməyəcək. Və əksinə, əgər biz danışan kollektivə zamandan kənarda baxmalı olsaq, onda da sosial qüvvələrin dilə təsirini görməyəcəyik"* (3, s.161).

Bir dilçi kimi Sössür, ilk növbədə, dillə maraqlanırdı. İşarələrin (və ya sözlərin) digər işarələrlə əlaqəsinə daha çox diqqət yetirirdi. Onun üçün işarə məna daşıyan fiziki varlıqdır. Onun sözləri ilə desək: *"dil işarələnən və işarələyəndən ibarətdir. İşarələyən bizim qavradığımız işarənin təsviridir – onun kağız üzərindəki izləri, havadakı səsləridir. İşarələyəni işarələnənlə birləşdirən əlaqə sərbəstdir; işarə adı altında biz bir neçə işarələyənlə bir neçə işarələnənin assosiasiyası nəticəsində əmələ gələn bütövü başa düşdüyümüzə görə bu fikri daha sadə ifadə edə bilərik: dil işarəsi sərbəstdir"* (3, s.146).

Sössür ilk dəfə olaraq Avropada dili tarixi hadisə və tədqiqat sahəsi olaraq araşdıran ənənəvi yanaşmanı qəbul etməyərək, onu tarixindən asılı olmayaraq

öyrənməyi təklif edirdi. Onun tərəfindən irəli sürülən bu dilçilik məktəbi strukturalizm adlandırıldı. Strukturalizmə qədərki dönəmdə dilin diaxronik baxımdan öyrənilməsinə üstünlük verilirdisə, bundan sonra sinxron metod əsasında tədqiqatlar aparıldı.

Sössür işarəni anlayış baxımından azad seçim hesab etsə də, onu azad deyil, ondan istifadə edən dil icması üçün zəruri hesab edir. Dil daşıyıcılarından hansı işarəni seçəcəkləri soruşulmur, nə fərd, nə də xalq bu seçimi dəyişdirə bilməz, dil özü onu seçir və o şəkildə istifadəni məcbur edir. İstənilən dildə çoxlu işarələr ola bilər. Bəzi dillərdə hərflərin sayı otuz və ya daha çox ola bilər, lakin onların işarələrinin sayı qeyri-məhduddur. Hər bir dil bir sistem yaradır və dil sistemi mürəkkəb mexanizmdir, bunu yalnız rasionallıq altında aydınlaşdırmaq olar. Dil ondan istifadə edənləri həmişə maraqlandırır və cəmiyyətdə dildən istifadə edən fərd hər gün ondan bəhrələnir. Dil də toplumdan təsirlənir. Bu da dilin azad olmadığını, dili işlədən əvvəlki toplumlardan günümüzə köçürüldüyünü, keçmişə sadiq qaldığını və bu gün də dilin o şəkildə işlədildiyini göstərir.

Sössür iddia edirdi ki, zaman dilin davamlılığını və dilin işarələrini təmin edir. O, bu səbəbdən bəzən tez, bəzən də yavaş dəyişir: “Müəyyən mənada işarənin həm dəyişkən, həm də dəyişməz olduğunu da söyləmək olar...” (3, s.146).

Sössürün fikrincə, dil qısa müddətdə və fərdlər tərəfindən dəyişdirilə bilməz, bu, uzunmüddətli bir prosesdir. Onun cəmiyyət tərəfindən dəyişdirilə biləcəyi fikri bu ziddiyyəti aradan qaldırır.

Bütün yuxarıda deyilənləri belə yekunlaşdıra bilərik ki, XX əsrin əvvəllərində F.de Sössürün dil, dilçilik və semiotika ilə bağlı fikirləri elmin bir çox sahələrinə təsir edəcək şəkildə yeni bir cığır açdı. Belə ki, o, geniş və hərtərəfli tədqiqatlarında dil-nitq, sinxroniya və diaxroniya, işarələyən və işarələnən və s. məsələlərə aydınlıq gətirməklə, özündən əvvəlkilərin, yaxud müasirlərinin ziddiyyətli fikirlərinə son qoymağa çalışmışdır.  Bu baxışları ilə o, antropologiya, psixologiya, sosiologiya, fəlsəfə, dilçilik, ədəbiyyat və s. sahələrə böyük təsir göstərmişdir.

Sözsüz ki, onun ən böyük fəaliyyəti semiotika elmini yaratmasıdır. Onun fikrincə, insan cəmiyyətdə işarələlərlə yaşayan bir varlıq olduğundan onları mənalandırmağa çalışır. Sössür yazır ki, “dili başqa ictimai hadisələrdən onun işarəvi səciyyəsi fərqləndirir, dil fikir ifadə edən işarələr sistemidir. İşarə sözünün ikimənalı dərk edilməsini aradan qaldırmaq üçün Sössür bir-birini nəzərdə tutan və eyni zamanda qarşılıqlı şəkildə qarşılaşdıran hər üç məfhumu öz adları ilə adlandırmağı təklif edir. O, təklif edir ki, işarə (signe) sözü bütövlükdə ifadə etmək üçün saxlansın, məfhum və akustik obraz terminləri isə uyğun olaraq işarələnən (signifie) və işarələyən (sifnificant) terminləri ilə əvəz edilsin” (22).

F. de Sössürün dil-nitq dixotomiyası haqqında fikirləri göstərir ki, dildə variativlik mövcuddur. Onun fikrincə, dil müəyyən bir kollektivdə yayılır və cəmiyyətə xidmət edir. Dildən hər kəs hər dəqiqə istifadə edir, buna görə də dil kollektivin təsirini hiss edir. Fransız dilçisi A.Meye dilçiliyin əsas vəzifələrini müəyyənləşdirərkən düşünürdü ki,  dilçilik cəmiyyətin hansı quruluşuna dilin hansı quruluşunun uyğun gəldiyini müəyyənləşdirməli və cəmiyyətin quruluşunda baş

verən dəyişikliklərin dilin quruluşundakı dəyişikliklərdə necə inikas etdiyini öyrənməlidir.

**Yekun.** Bütün deyilənləri belə yekunlaşdırmaq olar ki, XX əsr dilçiliyi isveçrəli dilçi Ferdinand de Sössürün "Ümumi linqvistika kursu" əsəri üzərində quruldu. İlk dəfə olaraq bu dövrdə dilçilik elmi Sössürün dildə etdiyi inqilab nəticəsində yenidən quruldu, dil sistemli elm sahəsinə çevrildi. O, dili bir sistem olaraq öyrənməyi təklif etdi. Müasir dilçilik elmində elə bir cərəyan və ya məktəb yoxdur ki, F.de Sössürün ideyalarından faydalanmamış olsun. Bir sözlə, dilçilik elmi onun sonsuz dühasından bəhrələnərək yaranmış və formalaşmışdır.

## İstifadə edilmiş ədəbiyyat

### Azərbaycan dilində

1. Boduen, de Kurtene, İ.A. Ümumi dilçilik üzrə əsərləri. Bakı: Prestige çap evi, – 2014. – 336 s.
2. Cəfərov, N. Ümumi dilçilik. Bakı: Təhsil, –2023. – 213 s.
3. Ferdinand, de Sössür. Ümumi dilçilik kursu. Bakı: BDU nəşriyyatı, –2003. – 407 s.
4. Hüseynova, A.Z. İşarədə tərəflərarası əlaqənin xarakterinə dair. Bakı: Sivilizasiya (elmi-nəzəri jurnal). 2013, №3, s.75-80.
5. Hüseynova A.Z. Dilin formalaşmasında işarələrin yeri və rolu. Bakı: "Qəzənfər Kazımov və Azərbaycan filologiyası" mövzusunda respublika elmi konfransının materialları. 20 may 2022, s. 399-406.
6. Məmmədov, N., Axundov, A. Dilçiliyə giriş. Bakı: Maarif, –1980. – 315 s.
7. Veysəlli, F.Y. Semiotika / F.Veysəlli. – Bakı: Mütərcim, – 2010. 336 s.
8. Veysəlli, F.Y. İşarə, anlam, məna və məzmun // Dil və ədəbiyyat, ADU-nun nəşri, – 2010, № 2 (13). – s. 89-97
9. Veysəlli, F. Dil. Bakı: Təhsil, – 2007. – 522 s.

### Rus dilində

10. Арно, А., Лансло, К. Грамматика общая и рациональная Пор-Рояля / А.Арно, К.Лансло. – М.: Прогресс, – 1990. – 271 с.
11. Волков, А.Г. Язык как система знаков / А.Волков. – М.: Изд-во Московского университета, – 1966. – 87 с.
12. Кубрякова, Е. С. Типы языковых значений. Семантика производного слова. Е.Кубрякова. – М.: Наука, – 1981. – 200 с.
13. Лабов, У. Структура денотативного значения // Новое в зарубежной лингвистике. – М.: Прогресс, – 1983, Вып. XIV. – с. 133-176
14. Лосев, А.Ф. Проблема символа и реалистическое искусство // 2-ое издание, исправ. – М.: Мысль, – 1995. – 320 с.
15. Маслов, Ю.С. Знаковая теория языка // Вопросы общего языкознания. – Л.: – 1967. – с. 109-127
16. Мечковская, Н.Б. Семиотика: Язык. Природа. Культура. Курс лекций: Учеб. пособие для студ. филол., лингв. и переводовед. фак. высш. учеб.

Заведений / Н.Мечковская. – М.: Издательский центр «Академия», – 2004. – 432 с.

17. Моррис, Ч.У. Основания теории знаков. Семиотика / Ч.Моррис. – М.: – 1983, – с. 37-89

18. Потебня, А. А. Мысль и язык // Слово и миф. – М.: Правда, – 1989. – с.17-200

19. Соссюр, Ф. де. Труды по языкознанию / Ф. де.Соссюр. – М.: Прогресс, – 1977. – 289 с.

20. Степанов, Ю.С. Методы и принципы современной лингвистики / Ю.Степано. – М.: Наука, –1975. – 311 с.

## **İnternet resursları**

21. https://www.google.com/url?sa=t&rct=j&q=&esrc=s&source=web&cd=&ved=2ahUKEwivtsuvm9OEAxUcRvEDHc6YDo8QFnoECA8QAQ&url=http%3A%2F%2Fwww.anl.az%2Fdown%2Fmeqale%2Fedebiyyat%2F2019%2Fyanvar%2F627921.htm&usg=AOvVaw19OXvR_Ooskzaml5qQt3UU&opi=89978449

22. https://az.wikipedia.org/wiki/Ferdinand_de_Sossür

23. GOSTERGEBILIM.pdf

**AYTEN HUSEYNOVA**

## **F.DE SAUSSURE'S CONCEPT IN LINGUISTICS**
## **SUMMARY**

The article delves into F. de Saussure's linguistic concepts through a detailed analysis of his seminal work “Course in General Linguistics”. The primary objective is to elucidate the groundbreaking contributions made by F. de Saussure to the field of world linguistics in the 20th century. Upon conclusion of the research, it was determined that F. de Sausseur clarified numerous contradictory points and knotty issues within the field of linguistics in his seminal work "Course in General Linguistics", which was written on the basis of his lectures and completed within a span of merely two to three years. In particular, it is noteworthy that Ferdinand de Saussure accurately expounded upon both the object and subject of linguistic study for the first time. Additionally, F.de Saussure laid the foundational framework for the study of semiotics, emphasizing that language comprises a system of signs. In his work, the author clarified complex linguistic concepts such as the similarities and differences between language and speech, the simultaneous and historical aspects of language acquisition, the syntagmatic and associative relationships among language units, the distinction between external and internal linguistics, the significance and arbitrary nature of language signs, the systemic nature of language, and the interplay between language history and human culture.

**Key words**: F. de Sausseur, ceonsepts in linguistics, the difference between language and speech, the nature of linguistic sign, the history of language and people.

**АЙТЕН ГУСЕЙНОВА**

## КОНЦЕПЦИЯ ЛИНГВИСТИКИ ФЕРДИНАНДА ДЕ СОССЮРА

## РЕЗЮМЕ

В статье исследована концепция языкознания Ф. де Соссюра на основе анализа его научного труда «Курс общего языкознания». Основная цель – выявить новации, внесенные Ф. де Соссюром в мировое языкознание XX века. В конце исследования сделан вывод, что в работе «Курс общего языкознания», написанной на основе своих лекций всего за две-три года Ф. де Соссюр проясняет многие противоречивые моменты и спорные вопросы науки языкознания. В частности, следует отметить, что наряду с тем, что он впервые точно определил как объект, так и предмет лингвистической науки, отметив, что язык – это система знаков, также заложил основу науки семиотики. В этой же работе впервые рассмотрены и прояснены такие проблемные вопросы как сходство и различие особенностей языка и речи, синхронное и диахронное обучение языку, синтагматические и ассоциативные (прагматические) отношения между языковыми единицами, внешнее и внутреннее языкознание, значение и произвольность языковых знаков, системный характер языка, история языка и народа и т. д.

**Ключевые слова**: Ф. де Соссюр, концепция языкознания, отличие языка от речи, символическая природа языка, история языка и народа.

**Redaksiyaya daxil olma tarixi: 10.04.2024**
**Çapa qəbul olunma tarixi: 24.04.2024**
**Rəyçi: Rasim Heydərov filologiya üzrə fəlsəfə doktoru, dosent**
**tərəfindən çapa tövsiyə olunmuşdur**